# Şəhid övladlarına mənəvi dayaq borcumuzdur

*Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən 1950-ci ildə 1 iyunun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunması qərara alınıb. Bu tarixdə keçirilən Qadınların Beynəlxalq Konfransından başlayaraq dünyanın əksər ölkələrində olduğu kimi, respublikamızda da həmin gün qeyd olunur.*

BMT-də uşaq hüquqlarına dair qəbul edilən konvensiyaya Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qoşulub və ölkəmizdə uşaq hüquqlarının qorunmasına xüsusi əhəmiyyət verilir, onların sağlam, hərtərəfli, vətənə layiqli övladlar kimi böyüməlri üçün hər cür şərait yaradılıb. Yaxşı bilirik ki, ölkənin gələcəyi uşaqların əlində olacaq.



Dövlət siyasətinə uyğun olaraq uşaqların sağlam, firavan böyüməsi və rifahının durmadan yüksəldilməsi başlıca vəzifələrdən biridir.

Ulu Öndər Heydər Əliyevin ideyalarını uğurlu fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən xüsusi qayğıya ehtiyacı duyulan, şəhid və valideyn himayəsindən məhrum olan uşaqlara göstərilən diqqət və qayğını hər bir vətənpərvər vətandaş özünə mənəvi borc hesab edir.

**Vətən Müharibəsi Qəhrəmanı, C.Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Anar Mirzəyev** dövlətin şəhid ailələrinə və qazilərə diqqətini yüksək dəyərləndirməklə onların uşaqlarına da qayğısını göstərmək üçün mütəmadi tədbirlərdə iştirak edir. İkinci Qarabağ müharibəsində uğurlu döyüşlərin gedişatı zamanı 3 dəfə yaralanan və bir müddət davam edən müalicədən sonra hərbi xidmətini davam etdirən Anar Mirzəyev "Qüsursuz xidmətə görə" 3-cü, 2-ci və 1-ci dərəcəli, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və digər medallar ilə təltif olunub. Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb. İkinci dərəcəli müharibə əlilidir.

Döyüş yoldaşları ilə mütəmadi görüşərək müharibə dövründə göstərdiyi qəhrəmanlıqları xoş təəssüratlarla bölüşən polkovnik vətən yolunda şəhid olan əsgərlərin də xatirəsini daim uca tutduqlarını bildirdi: "Biz şəhidlərimizi yad etməklə xalqımız üçün daim əbədi olan qəhrəmanlıq xatirələrini və ruhlarını yaşadırıq. Buna görə də hər bir şəhidin xatirəsini daim uca tutmaqla ailəsinə və uşaqlarına mənəvi dayaq olmaq hər birimizin müqəddəs borcudur.

Dövlət başçısı tərəfindən şəhid ailələrinə və qazilərə hərtərəfli qayğı göstərildiyini vurğulayan Vətən Müharibəsi Qəhrəmanı onların bütün problemlərinin yerindəcə həll olunduğunu deyir. Bu istiqamətdə görülən məqsədyönlü tədbirlər xalqımız tərəfindən olduğu kimi şəhid ailələri və qazilər tərəfindən də məmnunluqla qarşılanır.

Ümummilli liderimiz Heydər Əliyevin xalqa bağlı şərəfli həyat yolunu və müdrik siyasətini uğurlu fəaliyyəti ilə davam etdirən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti hər birimizi son dərəcə sevindirir. Mütəmadi ziyarət etdiyim şəhid ailələrinin bu məmnunluğuna mən də öz fəaliyyətimlə töhfə verməyə çalışıram.

Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi və igid əsgərlərimizin qəhrəmanlığı sayəsində xalqımız ölkənin suverenliyinə və dinamik inkişafına nail olub. Bu səbəbdən də şəhid və qazi uşaqları ilə görüşməyi özümə mənəvi borc bildiyimdən bundan qürur duyuram. Çünki bu uşaqların əsgərlərimizə xüsusi rəğbəti var. Düşmənin hərbi təcavüzündən qorunması üçün ordumuzun əvəzsiz xidmətini yüksək dəyərləndirirlər. Şəhid övladları da Zəfər qələbəsi üçün canlarını fəda edən atalarının xidmətinin xalqımız tərəfindən daim əziz tutulduğunu hər zaman hiss edirlər".

Şəhidlərin xatirəsini böyük ehtiramla yad etməyi, onların yadigarı olan uşaqlarla görüşməyi xalqımızın qəhrəmanlıq tarixinin əbədi yaşaması yolunda mühüm bir addım hesab edən Vətən Müharibəsi Qəhrəmanı şəhidlik zirvəsinə ucalan atalarının igidliyi barədə xatirələrini hər zaman onlarla bölüşür. Deyir ki, bu uşaqlarla görüşü mən hərbi xidmət qədər dəyərləndirirəm. Hər bir əsgər vətəni qorumaqla yanaşı, döyüşlərdə şəhid olan əsgər yoldaşlarının da övladlarına arxa olmalı və onlara mənəvi dayağını göstərməlidir. Çünki uşaqların gözündə parlayan qələbə sevinci qəhrəmanlıq tariximizin əbədi olacağını təsdiqləyir.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 1 iyun(№ 113).- S.4.